# Mərkəzi Seçki Komissiyasının yeni tərkibdə ilk iclası keçirilib




Aprelin 27-də Mərkəzi Seçki Komissiyasının (MSK) yeni tərkibdə ilk iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda qurumun sədri, müavini və iki katibi seçilib.



İclasda Milli Məclisin sədri Sahibə Qafarova da iştirak edib.

Milli Məclisin aprelin 27-də keçirilən iclasında Mərkəzi Seçki Komissiyasının yeni tərkibinin formalaşdırıldığını xatırladan Sahibə Qafarova deyib: “Azərbaycanın demokratik inkişafında seçkilər və ümumxalq səsvermələri böyük rol oynayır. Seçkilərin qanunauyğun şəkildə hazırlanıb keçirilməsi vacib məsələdir. Bu baxımdan MSK-nın üzərinə böyük məsuliyyət düşür. Hesab edirəm ki, ötən dövrdə komissiya üzərinə düşən işi layiqincə yerinə yetirib. Komissiya bu gün ölkəmizin siyasi sistemində özünəməxsus yer tutur”.

Sonra MSK-nın ən yaşlı üzvü Şaitdin Əliyev komissiyanın yeni tərkibdə ilk iclasını açıq elan edib.

Daha sonra açıq səsvermə yolu ilə Mərkəzi Seçki Komissiyası sədrinin, sədr müavininin və katiblərinin seçkisi keçirilib.

Məzahir Pənahov yekdilliklə Mərkəzi Seçki Komissiyasının sədri seçilib.

MSK-nın yeni tərkibinə etimad göstərdiklərinə görə Milli Məclisin bütün üzvlərinə minnətdarlığını bildirən Məzahir Pənahov qeyd edib ki, komissiya bundan sonrakı fəaliyyətində də ölkəmizdəki seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi üçün bütün lazımi addımları atacaq, qanunvericiliyin tələblərini, dövlətimizin və dövlətçiliyimizin maraqlarını əsas götürəcək. Mərkəzi Seçki Komissiyasının fəaliyyəti bu gün bir çox ölkələrdə nümunə kimi göstərilir.

Məzahir Pənahov vurğulayıb ki, vətəndaşlarımızın digər konstitusion hüquqları kimi, seçki hüquqlarının da qarantı dövlətimizin başçısıdır. Bu hüququn həyata keçirilməsi üçün 3 vacib meyar vardır ki, bunlar da ölkəmizdəki dayanıqlı ictimai sabitlik, möhkəm və təkmil hüquqi bazanın mövcudluğu və 30 mindən artıq seçki komissiyası üzvünə nümunəvi iş şəraiti yaradılmasıdır. Bütün bu sadaladıqlarımızın ölkədə bərqərar olması Prezident İlham Əliyevin siyasi iradəsinin məntiqi nəticəsidir. Sədr Məzahir Pənahov bütün bunlara görə Prezident İlham Əliyevə Mərkəzi Seçki Komissiyası adından bir daha minnətdarlığını bildirdi.

Sonra səsvermə yolu ilə Rövzət Qasımov MSK sədrinin müavini, Arifə Muxtarova Milli Məclisdə heç bir partiya mənsubiyyəti olmayan müstəqil deputatları, Mikayıl Rəhimov isə Milli Məclisdə deputatları azlıq təşkil edən siyasi partiyaları təmsil edən MSK katibləri seçiliblər.

## Mərkəzi Seçki Komissiyasında

### QƏRAR № 1/1

**Məzahir Məhəmməd oğlu Pənahovun Mərkəzi Seçki Komissiyasının sədri seçilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.2-ci, 19.3-cü, 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Məzahir Məhəmməd oğlu Pənahov Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri seçilsin.

| | |
|---|---|
| **Sədr** | **Məzahir Pənahov** |
| **Üzvlər** | **Fuad Cavadov** |
| | **Şaitdin Əliyev** |
| | **Bəxşeyiş Əsgərov** |
| | **Nailə Əsgərova** |
| | **Tofiq Həsənov** |
| | **Ramiz İbrahimov** |
| | **Validə Kazımova** |
| | **İlham Məmmədov** |
| | **Arifə Muxtarova** |
| | **Nizami Nadirxanlı** |
| | **Qabil Orucov** |
| | **Hüseyn Paşayev** |
| | **Rövzət Qasımov** |
| | **Almas Qəhramanlı** |
| | **Etibar Quliyev** |
| | **Mikayıl Rəhimov** |
| | **İlkin Şahbazov** |

### QƏRAR № 1/2

**Rövzət Afət oğlu Qasımovun Mərkəzi Seçki Komissiyası sədrinin müavini seçilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.2-ci, 19.3-cü, 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Rövzət Afət oğlu Qasımov Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası sədrinin müavini seçilsin.

| | |
|---|---|
| **Sədr** | **Məzahir Pənahov** |
| **Müavin** | **Rövzət Qasımov** |
| **Üzvlər** | **Fuad Cavadov** |
| | **Şaitdin Əliyev** |
| | **Bəxşeyiş Əsgərov** |
| | **Nailə Əsgərova** |
| | **Tofiq Həsənov** |
| | **Ramiz İbrahimov** |
| | **Validə Kazımova** |
| | **İlham Məmmədov** |
| | **Arifə Muxtarova** |
| | **Nizami Nadirxanlı** |
| | **Qabil Orucov** |
| | **Hüseyn Paşayev** |
| | **Almas Qəhramanlı** |
| | **Etibar Quliyev** |
| | **Mikayıl Rəhimov** |
| | **İlkin Şahbazov** |

### QƏRAR № 1/3

**Mikayıl Rəhman oğlu Rəhimovun Mərkəzi Seçki Komissiyasının katibi seçilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.2-ci, 19.3-cü, 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Mikayıl Rəhman oğlu Rəhimov Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının katibi seçilsin.

| | |
|---|---|
| **Sədr** | **Məzahir Pənahov** |
| **Müavin** | **Rövzət Qasımov** |
| **Katib** | **Mikayıl Rəhimov** |
| **Üzvlər** | **Fuad Cavadov** |
| | **Şaitdin Əliyev** |
| | **Bəxşeyiş Əsgərov** |
| | **Nailə Əsgərova** |
| | **Tofiq Həsənov** |
| | **Ramiz İbrahimov** |
| | **Validə Kazımova** |
| | **İlham Məmmədov** |
| | **Arifə Muxtarova** |
| | **Nizami Nadirxanlı** |
| | **Qabil Orucov** |
| | **Hüseyn Paşayev** |
| | **Almas Qəhramanlı** |
| | **Etibar Quliyev** |
| | **İlkin Şahbazov** |

### QƏRAR № 1/4

**Arifə Ağaverdi qızı Muxtarovanın Mərkəzi Seçki Komissiyasının Katibi seçilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.2-ci, 19.3-cü, 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Arifə Ağaverdi qızı Muxtarova Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının katibi seçilsin.

| | |
|---|---|
| **Sədr** | **Məzahir Pənahov** |
| **Müavin** | **Rövzət Qasımov** |
| **Katib** | **Mikayıl Rəhimov** |
| **Katib** | **Arifə Muxtarova** |
| **Üzvlər** | **Fuad Cavadov** |
| | **Şaitdin Əliyev** |
| | **Bəxşeyiş Əsgərov** |
| | **Nailə Əsgərova** |
| | **Tofiq Həsənov** |
| | **Ramiz İbrahimov** |
| | **Validə Kazımova** |
| | **İlham Məmmədov** |
| | **Nizami Nadirxanlı** |
| | **Qabil Orucov** |
| | **Hüseyn Paşayev** |
| | **Almas Qəhramanlı** |
| | **Etibar Quliyev** |
| | **İlkin Şahbazov** |